ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# HƏQİQƏTLƏRİ DANIŞAN MUZEY

Ukraynanın görkəmli yazıçısı və ictimai xadimi İvan Frankonun Ədəbi-Memorial Muzeyindən reportaj



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ukraynanın görkəmli yazıçısı və ictimai xadimi İvan Frankonun Ədəbi-Memorial Muzeyi Lvovda - şəhər kənarında yerləşir. Lvovun yaşlı sakinləri muzeyə gedən yolu daha sadə üsulla izah edirlər. Franko küçəsi 152-də yerləşən ikimərtəbəli ev “İsveçrə üslubu”nda tikilib. Bu memarlıq abidəsi eyni zamanda böyük yazıçının şəxsi əşyalarının ekspozisiyasıdır. Adı Lvov Milli Universitetində, Ukraynadan Kanadayadək küçə və əyalətlərdə əbədiləşən klassik yazıçının ev muzeyi gələn turistlərə İvan Franko haqqında həqiqətləri danışır.

## YAŞILLIĞA QƏRQ OLAN BAĞÇALI EV

Rəngbərəng gül-çiçəyə, yaşıllığa qərq olan kiçik bağçalı evin birinci mərtəbəsində beş otaq və bir mətbəx, ikinci mərtəbəsində də iki kiçik otaq var. Otaqlar kifayət qədər sadədir və hər birində qızdırıcı sobalar və stolların üstündə kerosin lampaları gözə dəyir. Mənbələrdə göstərilir ki, bu villanın inşası üçün İvan Franko son qəpiyini verərək torpaq alıb. Babasının ölümündən sonra Qalisiya Regional Bankına illik 4 faizlə 12.000 kron kredit ödəyib. Kreditin qalanı atalarının ölümündən sonra oğulları tərəfindən geri qaytarılıb. Digər bir mənbədə isə “Ukraynanın siyasi fəalları Frankonun kasıb şəraitdə yaşadığını görüb yazıçıya bu evi hədiyyə ediblər”- deyə qeyd edilib.

Franko ömrünün son 14 ilini -1902-ci ildən 1916-ci ilədək olan bir dövrü bu evdə yaşayıb. Yazıçının ölümündən sonra dul arvadı və oğulları ailələri ilə birlikdə bu evdə qalıblar.

1940-cı il 10 oktyabrda Ukrayna Ali Radasının qərarı ilə İvan Franko Ədəbi Xatirə Muzeyi fəaliyyətə başlayıb. Oğlu Petra Franko deputat olanda atasının adına muzey yaratmağı qərara alıb.

## 30 MİNDƏN ÇOX EKSPONAT

“Almanların Lvova hücumu zamanı muzey işləməyib. Muzeyin eksponatları Ukrayna Milli Muzeyinə və Taras Şevçenko adına kitabxanaya köçürülüb. İvan Frankonun evi aviabomba zərbələrindən ciddi zərər çəkib. 1969-cu ildə muzeydə ilk təmir işləri aparılıb” - deyə muzeyin gənc əməkdaşı məlumat verir.

2011-ci ildə Frankonun ev muzeyinə “Milli Muzey” statusu verilib. Muzeyin filialları, həmçinin yazıçının yay tətillərini keçirdiyi Naqueviç və Krivorivne kəndlərində də yaradılıb.

Muzeyin Fondunda 30 min eksponat qorunur. Bunların içərisində yazıçının şəxsi əşyaları, əlyazmaları, fotoları, ailə şəkilləri, dünya xalqlarının dilində olan əsərləri, avtoqraflar, şəxsi sənədlər, orijinal fotolar və s. mühüm yer tutur.

## YAZIÇI, ALİM, FİLOSOF, SİYASİ FƏAL

Muzeyi gəzdikcə “İvan Franko Lvov və ümumilikdə Ukrayna üçün kim idi?” sualına aydın cavab tapmaq olur. “Görkəmli yazıçı mücadilə içində keçən yaşamı ilə Ukrayna ədəbiyyatının və siyasi tarixinin önə çıxan fiqurlarından biridir. Nobel mükafatına namizəd göstərilsə də, buna ömrü çatmayan bir yazıçıdır”- deyə bildirirlər.

Frankonun ən sevimli otağı ilə tanış olmaqla yazıçının öz parlaq əlyazmalarını hansı qələmlə yazdığını, hansı piano arxasında oturduğunu, hansı musiqini və kitabları xoşladığını öyrənmək, ailəsindəki adətlər haqqında məlumat almaq olur.